**Article Arrival Date** **Article Published Date**
**25.11.2024** **20.12.2024**

# 1944-1945-Cİ İLLƏR CƏNUBİ AZƏRBAYCAN POEZİYASI

SOUTH AZERBAIJAN POETRY OF 1944-1945

**SAKİBƏ İSMAYIL QIZI ƏLƏSGƏROVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent, məkdar müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

**Xülasə**

Məqalədə Böyük Vətən müharibəsi illərində Cənubi və Şimali Azərbaycan ədəbi əlaqələri təhlilə cəlb olunmuşdur. Bu hərəkata qoşulan vətənpərvər şairlər idi. Onları bir amal, bir məqsəd birləşdirirdi. Əsərlərində azadlıq, istiqlal motivləri üstünlük təşkil edirdi. Ürək sözlərini ana dilində qələmə alan bu şairlər xöşbəxt görünürdü. İlk dəfə cənublu bacı, qardaşlarımızın dili, qələmi azad idi.Bəşəri ideyalar onları ağuşuna almışdı. Əsərlərini Sovet Azərbaycanında nəşr olunan mətbu orqanlara göndərirdilər. Şər qüvvələr üzərində qələbənin poetik tərənnümü onlara yaradıcılıq gücü verirdi. Bu hisslərini cənublu qardaşları ilə bölüşən yazarlar bir növ mənəvi sakitlik tapırdı.

Xalqın ürək çırpıntılarını, arzu və əməllərini tərənnüm edən bu şairlər çox gözəl anlayırdılar ki, vətənsiz yaşanmaz. Tapdanmış torpaqda şəhidlərin, uluların ruhu didərgindir. Yazılan bədii nümunələr də Azəri xalqının ucalan səsi, onların dilәkləri və ürək çırpıntılarıdır. Onlar vətənini, onun kədərini duyan, hiss edən insanlardır. Şeirlərin məzmun gözəlliyinə diqqət yetirən hər kəs onu da bilməlidir ki, burada təsvir olunan hər şey həyat həqiqətlərinə əsaslanıb. Xalqı birliyə, sədaqətə, azadlığa çağıran bu şəxslər cəmiyyətin taleyini uzaqgörənliklə dərk edirdilər. Cənubi Azərbaycan xalqının fədakarlığı, çalışqanlığı, daxili və mənəvi zənginliyi, zirəkliyi onlarda azadlıq və istiqlaliyyətə olan inamı artırdı.

**Açar sözlər:** Cənub, poeziya, Böyük Vətən müharibəsi, Şimali Azərbaycan mətbuatı.



**Summary**

The article analyzes the literary relations between South and North Azerbaijan during the Great Patriotic War. They were patriotic poets who joined this movement. They were united one goal, one purpose. The motives of freedom and independence prevailed in his works. These poets, who wrote the words of their hearts in their native language, looked happy. For the first time, our southern sister and brothers' language and pen were free. Human ideas embraced them. His

works were sent to the press published in Soviet Azerbaijan. The poetic hymn of victory over the forces of evil gave them creative power. The writers who shared these feelings with their southern brethren found a spiritual peace.

These poets, who sang the heartbeats, desires and deeds of the people, understood very well that one cannot live without a homeland. The souls of martyrs and great people are exiled in the trampled land. The written artistic examples are also the soaring voice of the Azeri people, their wishes and heartbeats. They are people who hear and feel their homeland and its sorrow. Anyone who pays attention to the beauty of the content of the poems should also know that everything described here is based on the realities of life. These individuals, who called on the people to unity, loyalty and freedom, understood the fate of society with foresight. The selflessness, diligence, inner and spiritual richness and intelligence of the people of South Azerbaijan increased their faith in freedom and independence.

**Keywords:** South, poetry, Great Patriotic War, North Azerbaijan press.

## Giriş

XX əsrin 40-cı illərinin ortalarında Cənubi Azərbaycanda güclü ədəbi hərəkat başlanmışdı. Bu hərəkatı irəli aparan əsasən vətənpərvər şairləridi. Başqa janrlarda da yazıb-yaradırdılar. Ancaq poeziya nümunələrindəki məzmun gözəlliyi, hisslərin, duyğuların səmimiliyi, fikirlərin yeniliyi və dərinliyi onu göstərirdi ki, həqiqətən, gözəl əməl və azad fikir tarixində yaşayırsan. Həmin dövrün şairləriədəbi təcrübələri və yaradıcılıq pafosu ilə fərqlənsələr də, onları bir məqsəd, bir amal birləşdirirdi. Özlərini "azadlıqsevər Azəri oğul və qızları" adlandıran bu yaradıcı şəxslər tutduqları mövqeyə görə iftixar hiss edir və qürur duyurdular. Sovet Azərbaycanından gəlmiş ordu faşıstlərin fitnəkarlığına son qoymuşdu və onlar ürək sözlərini doğma ana dilində qələmə alırdılar. Vahid bir ədəbi üslub ətrafında birləşən qələm sahiblərinin yaradıcılığında əks olunan vətənpərvərlik, istiqlal kimi bəşəri ideyalar aparıcı rol oynayırdı. Həmin poeziya nümunələrində Sovet Azərbaycanına, əlbəttə, dövrün tələbi kimi onun, eyni zamanda digər sovet xalqlarının rəhbərinə rəğbət hissi də əks olunurdu. Onların yazdığı ədəbi nümunələr "Vətən yolunda", "Ədəbiyyat" qəzetlərində, "Azərbaycan" jurnalında və s. ədəbi orqanlarda nəşr olunaraq xalqa çatdırılırdı. Arzular, dualar, düşmən qoşununun zavala gəlməsi, Cənubi Azərbaycan fədailərinin əzmkarlığı, Sovet rəhbərinin bütün ölkələri faşızm işğalından azad etməsi, qalibiyyət nişanının təntənəsi kimi mövzular həmin dövr poeziya nümunələrinin aparıcı mövzusuna çevrilmişdi. Poeziyada sanki 2 mövzu üz-üzə dayanmışdı-bir tərəfdə qaraguruhçu və vəhşilər-hansı ki, onlar xalqları fəlakətə sürükləyir,

ISSN
3023-5480

digər tərəfdə tərəqqipərvər başəriyyət və onların şər qüvvələr üzərində qələbə əzminin poetik tərənnümü. Həmin dövrdə nəşr olunan mətbu orqanların əksəriyyətində eyni mövzu və məzmun , qələbə ideyasının təntənəsi səf-səf durmuş "ordu" kimi nəzəri cəlb edir. "Ədəbiyyat" qəzetinin 1945-ci il, 5 may, 12-ci sayında Məhəmməd Biriya, M. Etimad, Əli Tudə, Əli Nişani, Əbülfəz Məməgani, Azər oğlu, Səməd Afum, Mir Mehdi Çavuşi kimi məşhur Cənubi Azərbaycan şairlərinin şeirləri nəşr olunub. Vətənin gözəlliyini, vüqarını, Şimali Azərbaycanın "azadlığı"nı tərənnüm edən bir poeziya çələngi. Əli Tudə "Sovet Azərbaycanı" şeirində yazır:

Azərbaycan, at oynatdı

Hər yerindən qalxan səndə.

Şahlıq üstə bir-birinə

Çəkdi qılınc, qalxan səndə.

Qırdı əlsiz-ayaqsızı,

Axıtdı çox al-qan səndə.

Nə ərşə, nə şikayətə

Baxmadı bəy, soltan səndə. (1,6)



Ancaq bu, indiyə qədər olanlardır. Şair Şimali Azərbaycan xalqının "azad" yaşayışını zülmün günəşlə boğulması ilə müqayisə edir. Sinəsində azadlıq nişanı olan "can" Azərbaycan bəxtiyardır, aşıq sazla, şair sözlə öz xalqına xidmət edir. Harda ki, uçan xəyal, coşan könül, yazan qələm, danışan dil azaddır, o yerdə xoşbəxtlik hökm sürür. Əli Nişaninin qələmində ("Azərbaycan, Azərbaycan") Azərbaycanın tarixi şan-şöhrəti, bənzərsiz təbiət gözəlliyi, təbii sərvətləri öz gözəlliyi ilə əksini tapır. O yazır:

Böyük ana qucağın var.

Günəş rəngli bayrağın var.

Azad ellər məskənisən!

Azərbaycan, Azərbaycan! (1,6)

Yer üzündə cənnət kimi gülzarı olan yurdumuzun dünyanın gözəli, qoca Şərqin gəlini adlandırılması bütün tarixi dövrlərdə təsdiqlənib. Qucağında "Nizami"lər, "Füzuli"lər bəsləyən Azərbaycan bütün zaman kəsiklərinə öz vüqarı ilə şəfəq salıb. Dünya mədəniyyəti Şimalın söz mülkinin memarı olan Xaqani poeziyasından, əsərləri ilə "saray" tikmiş Məhsəti şeirlərindən, Xətayi, Qazi kimi sərdar şairlərin qürurverici yaradıcılığından, Vaqif gözəlləmələrində,

ISSN
3023-5480

qaranlığı işıqlandıran Sabir qələmindən mənəvi qida alır. Bizim bu ədəbiyyat nəhənglərinin yaradıcılığından Cənubi Azərbaycanın bir çox şair və yazıçıları da bəhrələndi və dünya səviyyəli ədəbi nümunələr yaratdı. Kəsər sözü olan Tərad, Əfşar, söz mülkünü bəzəyən Bahar, XX əsrin ortalarında "Heydərbabaya Salam" poeması ilə fars şovinizminə ana dilində meydan oxuyan "bizim Şəhriyar" və s. kimi söz nəhəngləri uzun illər öz əsərləri ilə saysız-hesabsız insanları cəhalət yuxusundan oyatdı. Qaçaq Nəbinin, Koroğlunun adı indi də düşmənə psixoloji təsir edir. Koroğlunun qəhrəmanlığı, xalqın mənafeyini müdafiə etməsi, Azəri oğlunun mərdliyi namərd düşmənlərimizin də onun şəninə qəhrəmanlıq dastanı qoşmasına səbəb olmuşdu. Düz həmişə "kəsir". Odur ki, XX əsrin 40-50-ci illərində yaranan bədii nümunələrdə fədailərin qəhrəmanlığı, faşızmi məğlub etməyin qüruru öz əksini tapırdı. M.M. Çavuşi "Yurdum" şeirində yazırdı:

İndi bütün gülümsəyir qızıl gül tək al gülür,
Hər gün yeni bir zəfəri, şüarı var yurdumun.
Yer üzünə nicat verən böyük "Sovet" xalqının
Polad adlı rəhbərinə ilqarı var yurdumun. (1,6)

Bir millət olaraq fikirləşəndə SSRİ bizdən çox şey aldı. Ancaq o zamankı birlik vahid düşmənin üzərində əzmlə qələbə çaldı. Eyni zamanda 40-cı illərdə SSRİ Cənubi Azərbaycanı yenidən özündə birləşdirmək fikrinə düşdü. Ancaq sonra məlum oldu ki, şəxsi mənafelər dostluq və qardaşlıqdan üstün imiş. Adları çəkilən və çəkilməyən Cənubi Azərbaycan şairlərinin hamısı xalq içərisindən çıxmışdı. Yazılan bədii nümunələr də Azəri xalqının ucalan səsi, onların diləkləri və ürək çırpıntılarıdır. Onlar vətənini, onun kədərini duyan, hiss edən insanlardır. Şeirlərin məzmun gözəlliyinə diqqət yetirən hər kəs onu da bilməlidir ki, burada təsvir olunan hər şey həyat həqiqətlərinə əsaslanıb. Xalqı birliyə, sədaqətə, azadlığa çağıran bu şəxslər cəmiyyətin taleyini uzaqgörənliklə dərk edirdilər. Cənubi Azərbaycan xalqının fədakarlığı, çalışqanlığı, daxili və mənəvi zənginliyi, zirəkliyi onlarda azadlıq və istiqlaliyyətə olan inamı artırdı. 1945-ci ildə Azəroğlu bu tendensiyasını ilk hiss və tərənnüm edən şairlərdən idi:



İnsan gərək əyilməsin qarşısında zalimlərin,
O gərəkdir öz həqqini, hüququnu yüksək bilə.
Qalsa, adı azad ola, ölsə, düşə dildən-dilə,
İnsan gərəkbolan gündən mənliyini düşünməli..... (1,5)

ISSN 3023-5480

Xalqın ürək çırpıntılarını, arzu və əməllərini tərənnüm edən bu şairlər çox gözəl anlayırdılar ki, vətənsiz yaşanmaz. Tapdanmış torpaqda şəhidlərin, uluların ruhu didərgindir. Vətən qədrini bilən insanların varlığı torpağın və xalqın bəxtiyarlığının mövcudluğu deməkdir. Vətənpərvər şair Əli Fitrət "Azərbaycan" adlı şeirində yazır:

Daim şərəfli aşiyanım yaşa!

Yaşa, yaşa, Azərbaycanım, yaşa!   (1,5)

Cənubi Azərbaycan şairlərinin əsərlərində təsvir olunan SSRİ, Stalin, sovet xalqı kimi müraciətlər əslində Sovet Azərbaycanına olan coşqun məhəbbət və ehtiramdan irəli gəlirdi. Əli Fitrət və Əli Tudə eyni adlı "Sovet Azərbaycanı" şeirlərində öz vətənpərvərlik hisslərini əks etdirirdilər. Əli Tudə Sovet Azərbaycanı vətəndaşlarını ona görə xoşbəxt hesab edir ki, orada oba, el xəyal, könül, müzrab, tel, hətta  dil belə azaddır. Faşızmin məhvi bu azadlığı daha da gücləndirib. Cənubdan Bakıda nəşr olunan qəzet və jurnallara göndərilən poeziya nümunələrinin əksəriyyətini də coşqun bir ədəbi intibah özünü göstərirdi. Antifaşist mövqedə dayanan və əsərlərini Bakıya göndərən istiqlaliyyət şairlərinin sayı 30-u keçmişdi.  Yuxarıda əsərlərindən nümunə gətirdiyimiz yazarlardan başqa M. Biriya, M. Etimad, Yəhya Şeyda, Əmir Abi, Aşıq Hüseyn, Yusif Şadi, Mehtəb, Məhəmməd Bağır Kərgər, R. Növbəri, Kaşifi, Sabir, Nemət oğlu, Şah Əli Səlimi, Quluxan Borçalı, Talıb Zadə, F. Teyzəb kimi şairlər gənc və güclü qələm sahibləri idi. Onların yaradıcılığı sayəsində Cənubi Azərbaycan ədəbiyyatı çiçəklənmə dövrünü yaşayırdı. Bu poeziyada həm Sovet Azərbaycanına və rəhbərlərinə inam və ümid, həm də Cənubi Azərbaycan xalqının yüksək amal və arzuları tərənnüm olunurdu. Şair xəyalı cilovsuz olur, deyirlər. Çiçəkdən çiçəyə qonulası bu xəyal cilovu  o dövrlərdə ancaq vətən və azadlıq eşqi ilə uçurdu. Özü də yüngül kəpənək kimi deyil, ağır-ağır, bir də atəşin. Səməd Afum yazırdı:

Səndəndir xəmirim, ey ana yurdum.

Sinə simlərimlə mizrabı vurdum.

Analıq haqqına, o süd haqqına,

Fikrimlə, sözümlə bu şeiri qurdum.   (1,5)

Sovet qoşunlarının Cənubdan çıxarılması xalqı da, onun əli qələm tutanlarını da məyus etmişdi. Bu "Qızıl Ordu" özünün "min bir dolabi" ilə özünü xalqa sevdirmişdi. Odur ki, həmin dövrdə onun gücünə, sədaqətinə minlərlə əsər ithaf olunurdu. Həm dövrün tələbi, həm güclü ideologiya bunu xalqa və onun yazan əlinə güclü şəkildə təlqin etmişdi. Əvəz Sadiq 1945-ci il,

ISSN
3023-5480

“Ədəbiyyat” qəzetinin 15-ci sayında “Coşqun məhəbbət ifadəsi” adlı məqaləsində yazır: “Qızıl Ordu çıxan gün şəhərlər bəzənir, zəfər tağları qurulur, xitabət kürsüləri dikəlir, qızıl əsgərlərin başlarına səpmək üçün gül və çiçəklər dərilir, şəhər əhli şüar və bayraqlarla küçəyə çıxıb qızıl əsgər dəstələrinin və motorlu hissələrin keçəcəyi yolların iki ərəfində səf çəkib onları müşaiyət edirdilər”. (2,3). O vaxt təkcə Təbrizdə deyil, Marağada, Urmuda, Səlmasda, Ərdəbildə də eyni mənzərə yaranmışdı. Elə bil ki, qəlbdən bağlanmış dostdan ayrılıq mərasimi keçirilirdi. Saysız bədii əsərlərin yaranması üçün əvvəlcədən hər cür ideoloji baza yaradılmış və xalqın təfəkkürünə yeridilmişdi. Hicran, fəraq, ayrılıq məzmunlu ibarələr, hərarətli sözlər və qəlb çırpıntılarının hədəfinə çevrilən həmin Qızıl Ordu 1990-cı ilin qara Yanvarında Azərbaycan xalqının şanlı tarixinə qanlı bir səhifə yazdı. Əlbəttə, bu hələ sonralar olacaqdı...

Ancaq həmin vaxt Cənubun görkəmli şairlərindən Hilal Nasiri Qızıl Ordunun gedişini faciə kimi qəbul etmişdi:

Həbibim, indi nə halətdəyəm, özüm bilirəm,

Gözün görür ki. bədəndən çıxıbdı can gediri.

Gözüm axır, ürəyim titrəyir, yanır canım,

Ola bu cismim üçün taqətü-təlan gediri. (2.2)



Hətta Qızıl Ordunun Cənubi Azərbaycandan çıxarılmasını istəməyən Təbriz şairləri birlikdə orduya nəzmlə məktub yazır. Müəlliflər Təbriz şairləri adından M. Biriya, Ə. Fitrət, M. Etimad Əbülqasım Kamil, B. Azəroğlu və Hüseyn Səhhaf idi. “Ədəbiyyat” qəzetinin 1946-cı il, 31 may tarixli sayında bu məktub dərc olunub. “Təbi-rəvan”adlandırılan “obyektdən” onları hicran oduna yandırmaması üçün kömək rica olunur. Həyat həqiqəti bu idi ki, uzun əsrlər “qanlı sitəmkarlardan” -Çingiz xan, Osmanlı, ərəb, əfqan qoşunlarından zülm, işgəncə görən Cənub qardaşlarımız rus qoşunlarından zərər görməmişdi. Rus hökumətinin Cənubun təbii sərvətlərinə şərik çıxmasından xalqın xəbəri yox idi. Üzbəüz xoş rəftar, qəlbi təmiz olan Şərqlinin məntiqlə düşünməsinə imkan vermirdi. Onlar düşünürdü ki, Sovet dövləti onlara həmişəlik sahib çıxar. Məktubda xalqın tarixi yaddaşı təzələnir, uzun illər tökülən qanlar, Sezar ordusundan üzü bəri edilən sitəmlər yada salınır. Ancaq xalq bu axırıncı ordunun fərağına dözə bilməyəcək. Məktubda oxuyuruq:

Nə tək öz xalqını azad elədi,

Hamı məzlumlara imdad elədi.

Ruh verib şanlı gözəl ölkəmizə,

ISSN
3023-5480

Qələbə dərsini öyrətdi bizə.  (2,3)

Qızıl Orduya inamı gücləndirən əsas səbəblər ona qədər edilən zülmlər, fars şovinizminin Azəri övladlarına qarşı törətdiyi vəhşiliklər, xalqın ağır yaşayış tərzi, dili belə əlindən alınan, məktəbsiz, təhsilsiz qalan insanların düşdüyü çətin vəziyyət idi. Ölkədə uzun illər tökülən qanlar, bunu təsdiq edən tarixi faktlar, zülm, işgəncə və talandan başqa bir şey görməyən cənublu qardaş və bacılarımız və onların görən gözü və qələm tutan əli ilk dəfə kömək görmüşdü. Biri min bilən xalqımız adından yazılan bu məktubda onun ürək sözləri, təşəkkür dolu baxışları öz əksini tapırdı. Farslara göz dağının verilməsi onları ürəkləndirmişdi.

Kəsdilər zülmü sitəm rişəsini.

Elə bir əmnü-əman oldu vətən.

Bir gözəl milli hökumət yaranıb,

Millət öz qismətini indi qanıb. (2, 3)

**Ədəbiyyat**

1. “Ədəbiyyat” qəzeti. 1945-ci il, 5 may, №2
2. Ədəbiyyat” qəzeti. 1946-cı  il, 31 may, №15
3. Ədəbiyyat” qəzeti. 1946-cı il, 9 may, №13
4. Ədəbiyyat” qəzeti. 1946-cı  il, 1 may, №4